İPƏK YOLU, No.3, 2023, səh.63-74

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ YEYİNTİ SƏNAYESİNİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

**Gülşən Yüzbaşıyeva, Səxavət Mirzəyev**

Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutu, Bakı, Azərbaycan
Azərbaycan Kooperasiya Universiteti, Bakı, Azərbaycan
e-mail: mirzeyev.s@gmail.com

**Xülasə**. Məqalədə yeyinti sənayesinin inkişafı araşdırılmış, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yeyinti sənayesinin inkişafına təsir edən amillər öyrənilmiş, eləcə də sahənin inkişafı istiqamətində təklif və tövsiyələr hazırlanmışdır.

**Açar sözlər**: yeyinti sənayesi, ərzaq, rəqabət, keyfiyyət, işğaldan azad edilmiş ərazilər, məhsuldar qüvvələr.

**FACTORS AFFECTING THE DEVELOPMENT OF THE FOOD INDUSTRY IN THE TERRITORIES LIBERATED FROM OCCUPATION**

**Gulshan Yuzbashiyeva, Sakhavat Mirzayev**
*Ministry of Science and Education, Institute of Economics, Baku, Azerbaijan*
*Azerbaijan Cooperation University, Baku, Azerbaijan*

**Abstract**. The article examines the development of the food industry, studies the factors affecting the development of the food industry in the liberated territories of Azerbaijan, and prepares proposals and recommendations for the development of the field.
**Keywords**: Food industry, food, competition, quality, liberated territories, productive forces.

**ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА РАЗВИТИЕ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ НА ТЕРРИТОРИЯХ, ОСВОБОЖДЕННЫХ ОТ ОККУКАЦИИ**

**Гульшан Юзбашева, Сахават Мирзаев**
*Министерство Науки и Образования, Институт Экономики, Баку, Азербайджан*
*Азербайджанский Университет Сотрудничества, Баку, Азербайджан*

**Резюме.** В статье рассматривается развитие пищевой промышленности, изучаются факторы, влияющие на развитие пищевой промышленности на освобожденных территориях Азербайджана, а также подготавливаются предложения и рекомендации по развитию отрасли.
**Ключевые слова:** пищевая промышленность, продукты питания, конкуренция, качество, освобожденные территории, производительные силы.

## 1. Giriş

Sovet dövründə regionların tarixi xüsusiyyətləri və sənaye inkişafı iqtisadiyyatın ərazi strukturuna mühüm təsir göstərmiş, onun ən mühüm təbii ehtiyatlarının məkan bölgüsü ilə uyğunsuzluğunu əvvəlcədən müəyyən etmişdir. Regionların real rasional inkişafı ilk növbədə maddi nemətlərin istehsalı, bölüşdürülməsi, mübadiləsi və istehlakı ilə bağlı proseslər kompleksinin qarşılıqlı əlaqəsini nəzərdə tutur və bu problemin çoxşaxəliliyini göstərir. Regionun inkişafı nə qədər rasional olarsa, onun sənaye istehsalının strukturu bir o qədər mükəmməl olar. Nəticədə bütün bunlar sənayenin və bütövlükdə iqtisadiyyatın ümumi strukturunun rasionallaşdırılmasına kömək edəcəkdir. Tarixi Azərbaycan torpaqlarının erməni

ekstremistləri tərəfindən işğalı nəticəsində bu ərazilərdə vəziyyət daha da pisləşsə də, dövlətimizin həyata keçirdiyi siyasət işğal olunmuş torpaqların azad edilməsinə gətirib çıxardı.

Hərbi əməliyyatların mükəmməl aparılması: düzgün təşkili, icrası, koordinasiyasında, tabeliyinin düzgün qurulması Azərbaycanın qeyd-şərtsiz qələbəsinə səbəb oldu.

Hazırda bu rayonların hərtərəfli inkişafı üçün tədbirlər görülür. İqtisadi artımın əsas hərəkətverici qüvvəsi neft sektorundan qeyri-neft sektoruna keçiddir. Məhz bu illər ərzində inkişaf etmiş regionların inkişaf səviyyələrindəki fərqlərin aradan qaldırılması iqtisadi inkişafın ümumi səviyyəsinin yüksəlməsinə şərait yaradır. Amma bu o demək deyil ki, müxtəlif bölgələrdə hər şey eyni olacaq. Sənaye istehsalının müxtəlif inkişaf templəri, onun müxtəlif strukturu, adambaşına düşən məhsulun qeyri-bərabərliyi olacaqdır. Bölgənin inkişafının kompleks xarakteri istehsalın yüksək təmərküzləşməsi və iqtisadi cəhətdən məqbul əmək bölgüsü məqsədi ilə əlaqəli müəssisələrin ixtisaslaşması nəzərə alınmaqla istehsalın real qarşılıqlı əlaqəsi yolu ilə optimal iqtisadi səmərəliliyin əldə edilməsini nəzərdə tutur. Rəqabət üstünlükləri bunlardır:

- əlverişli iqtisadi və coğrafi mövqe;
- inkişaf etmiş nəqliyyat kommunikasiyaları sistemi və ümumilikdə sənaye infrastrukturu;
- faydalı qazıntılar, su, torpaq və meşə ehtiyatları;
- əhəmiyyətli elmi-texniki potensial;
- çoxşaxəli sənaye kompleksləri;
- əhalinin yüksək ümumi təhsil səviyyəsi və s.

Yuxarıda deyilənlərə əsaslanaraq, belə nəticəyə gəlmək olar ki, regional inkişaf daha da böyük, daha kəskin əhəmiyyət kəsb edir. Mövcud olan hər şeyin qorunub saxlanmasına, artırılmasına və səmərəli istifadəsinə hamıda real maraq yaratmaq lazımdır. “Biz Azərbaycan deyəndə onun zənginliyini, gözəl təbiətini nəzərdə tuturuq. Lakin bununla yanaşı, onun əsas sərvətlərindən biri, bəlkə də, əsas sərvəti bu diyarda yaşayan, taleyini qədim zamanlardan onunla bağlamış insanlardır” (“Az-an” qəzeti. H. Əliyev milli azlıqların nümayəndələri ilə görüşdə. 07.10.1993).

Belə ki, Ağdamda sənaye mərkəzinin, Cəbrayılda logistika və ticarət mərkəzinin, Şuşada mədəniyyət və turizm mərkəzinin, Kəlbəcərdə dağ-mədən və turizm mərkəzinin yaradılması nəzərdə tutulur. Sənaye parklarının rezidentləri 10 il müddətinə gəlir vergisini, torpaq və əmlak vergisini, istehsal məqsədləri üçün idxal olunan maşın, qurğu və texnoloji avadanlıqların idxalına görə ƏDV və 7 il müddətinə gömrük rüsumlarını ödəməkdən azaddırlar.

Qarabağda “ağıllı” şəhərlərin tikintisinə, yaşıl enerjinin inkişafına başlanılıb. Azərbaycanın ildə təxminən 2,56 milyard kubmetr su təşkil edən daxili su ehtiyatlarının dörddə biri Qarabağdan qaynaqlanır. Rayonun əsas çayları- Tərtər, Bazarçay, Həkəri və digər kiçik çaylar böyük hidroenergetika potensialına malikdir. Qarabağın günəş enerjisi potensialı 3000-4000 meqavat, külək enerjisi potensialı isə 300-500 meqavat qiymətləndirilir. İranla birgə

tikilən "Xudafərin" və "Qız qalası" su elektrik stansiyaları 280 MVt enerji, Kəlbəcər-Laçın bölgəsində nəzərdə tutulan su elektrik stansiyaları isə 120 MVt enerji təmin edəcək ki, bu da regionun yaşıl mənbələrə arxalanmasına şərait yaradacaq, bu da regionun ilkin enerji ehtiyacını ödəyəcək.

Kəlbəcər rayonunda sutkada 3093 kubmetr, Şuşada isə 412 kubmetr termal su ehtiyatları yaşıl energetikanın inkişafı üçün böyük potensiala malikdir. Həmçinin, enerjinin ötürülməsi, paylanması və istehlakı üçün ən səmərəli və ağıllı sistemlərin istifadəsi 2021-ci ildə Qarabağa 1,3 milyard ABŞ dolları həcmində dövlət sərmayəsi potensial qeyri-neft ÜDM-i artıracaq-yollar, elektrik enerjisi, qaz və digər infrastrukturlar iqtisadiyyatın artımına, gələcəkdə potensial artıma töhfə verəcək. Qarabağa dövlət investisiyaları katalizator olacaq, qeyri-dövlət investisiyalarına zəmin yaradacaq. Qarabağın bərpasına Türkiyədən, Pakistandan, İsraildən investisiya axını var. Dağ-mədən sənayesinin, metallurgiya, yeyinti və yüngül sənayenin, kənd təsərrüfatının, turizmin, yaradıcı sənayenin inkişafı üçün potensial var. Standard & Poor (S&P) Azərbaycanın xarici valyutada uzunmüddətli suveren kredit reytinqini "BB+/B" səviyyəsində təsdiq edərək, proqnozunu "mənfi"dən "stabil"ə yüksəldib. Bu, Qarabağın azad edilməsindən sonra maliyə sektorunda təhlükəsizlik risklərinin azalması və həmçinin tədiyə balansı riskinin azalması ilə əsaslandırılıb. 2022-ci ildə Azərbaycan Qlobal Qida Təhlükəsizliyi Reytinqinə əsasən, dünya ölkələrin reytinqində, 59,8 indeksi ilə 66-cı yeri tutmuşdur (marja.az).

Qeyri-neft məhsullarının istehsalının stimullaşdırılması vacib şərtdir ki, bu da özəl investisiyaların stimullaşdırılmasının əsas prioritetlərindən birinə çevriləcək. ÜDM-in formalaşmasında kiçik və orta biznesin üstünlük təşkil etməsinə nail olmaq da vacibdir.

Regionların rasional bölgüsü məsələləri səmərəliliyin ümumi tələblərinə uyğun olmalıdır. Müəyyən bir sahədə sənayelərin qarşılıqlı əlaqəsinə (sahələrarası razılaşmaya) nail olmaq özlüyündə məqsəd deyil, real nəticələrə nail olmaq vasitəsidir. Məqsəd sənayenin struktur transformasiyasının əsas istiqamətlərini və prioritetlərini hazırlamaq, rəqabət üstünlüklərinin yaradılmasını və ən səmərəli istifadəsini təmin etmək, onun rəqabətqabiliyyətlilik səviyyəsini artırmaqdır.

Bütün bunlar işğaldan azad edilmiş ərazilərdə intensivləşmiş regionallaşma, qloballaşma və inteqrasiya prosesləri nəzərə alınmaqla yeyinti sənayesinin bərpası və inkişafı üçün əsasların yaradılmasına öz töhfəsini verəcək.

Qloballaşma müəssisələrin qlobal rəqabəti proseslərinin inkişafı, investisiyaların axını ilə müşayiət olunur. Regionların üstünlüyü, əsasən, onların rəqabətqabiliyyətliliyi amili ilə müəyyən ediləcək ki, bu da yüksək texnologiyaların inkişafı strategiyasının, sahibkarlığın, regional və dövlətin iqtisadi siyasətinin böyük təsiridir. Müqayisəli amil təbii sərvətlərin mövcudluğudur ki, bu da yalnız təbii-iqlim şəraiti fərqli olan regionlarda əsas rol oynayacaqdır.

Regionallaşma prosesləri, fikrimizcə, ən azı iki aspektdə özünü göstərəcək:

- Birincisi, region daxilində yeni "artım qütbləri" və iqtisadi inkişaf mərkəzləri formalaşacaq ki, onların yaranması həm elm və texnikanın tərəqqisi, həm də konkret məhsula yaranan ehtiyacların ödənilməsi zərurəti ilə müəyyən ediləcək.

- İkincisi, zaman keçdikcə sərhədyanı rayonlarda rayonlaşma prosesləri iqtisadi cəhətdən bir-birindən asılı və bir-birini tamamlayan ərazi qurumlarının, o cümlədən, ölkənin sərhədyanı rayonları və qonşu dövlətlərin yaradılmasına gətirib çıxara bilər ki, bu da müxtəlif malların istehsalında birgə fəaliyyətin həyata keçirilməsinə yönəldilə bilər.

Ona görə də yaranan problemləri həll etmək üçün regional ziddiyyətlərin güclənməsinin əsas səbəblərini müəyyən etmək və onların aradan qaldırılması yollarını göstərmək lazımdır. Sənayenin resurs imkanları və ixtisaslaşması nəzərə alınmaqla Azərbaycanın real inkişafına töhfə verəcək regional müxtəliflikdə birliyin axtarışı vacibdir, yerli məhsullardan yüksək texnologiyalı və əmək tutumlu malların istehsalının inkişafı nəzərdə tutulur. İnkişaf prioritetlərinin həyata keçirilməsinə yalnız sistemli yanaşma müsbət təsir göstərə bilər.

İşğaldan azad edilmiş ərazilərdə görülən işlər müxtəlif istiqamətləri əhatə edir. Görülən işlər, ardıcıl qəbul edilən qərarlar belə nəticəyə gəlməyə əsas verir ki, həyata keçirilən genişmiqyaslı tədbirlər dövlətin iqtisadi siyasətinin prioriteti olan qeyri-neft sektorunu inkişaf etdirməklə yanaşı, ixrac imkanlarının artmasına, sahənin rəqabət qabiliyyətinin yüksəlməsinə də kömək edəcəkdir. Bunun üçün isə, xammal və ehtiyatlarla yanaşı, lazımi kadrların da olması zəruridir. Bu mənada müvafiq kadr təminatını və hazırlığını, eləcə də təsir edən müxtəlif amilləri yeyinti sənayesinin əsas problemlərindən biri kimi tədqiq edə bilərik.

## 2. Yeyinti sənayesinin inkişafına təsir edən amillər

Məlum olduğu kimi, istehsal həcminin artırılması ilə yanaşı, keyfiyyətin və rəqabət qabiliyyətinin yüksəldilməsi də, ərzaq təminatı və təhlükəsizliyinin təmin edilməsi də insan amilindən birbaşa asılıdır. Müşahidələr göstərir ki, müstəqillik illərində SSRİ dövründən qalmış müəssisələrin özəlləşdirilməsi, bir çox hallarda müəsissələrin öz fəaliyyət istiqamətlərini dəyişməsi bu sahədə kadr potensialının dağılmasına, sıradan çıxmasına səbəb oldu. Köhnə müəssisələrin sıradan çıxması, yeni müəssisələrin tam gücü ilə fəaliyyət göstərməməsi, eləcə də yeni yaranan müəssisələrin kiçik olması səbəbindən yeyinti sənayesi sahəsində kadr hazırlığı öz dinamikasını itirdi. Beləliklə, ixtisaslı olmayan "kadrlar" çoxalsa da ixtisaslı kadr çatışmazlığı müşahidə edilirdi, xüsusilə, ixtisaslı texnoloq, ekspert və s. Əslində isə qida sənayesi üçün bacarıqlı, savadlı mütəxəssislərin olması çox vacibdir, çünki qida istehsalçıları sağlam cəmiyyətin, genefondun formalaşmasında iştirak edir. Ümumilikdə, araşdırma və təcrübəyə əsasən, aşağıdakı amillər qida (yeyinti) sənayesinin inkişafını təmin edir [4, s. 32-43; 7; 10]:

- iqlim və relyef amili– bu, müvafiq təbii potensialı formalaşdırır, yeyinti sənayesinin əsasını və əsas xammal bazasını təşkil edən bitkiçiliyin inkişafı üçün şərait yaradır. Təbii ki, yeyinti sənayesinin ixtisaslaşması üçün də iqlim və relyef şəraiti xüsusi əhəmiyyət kəsb edir. Onu da qeyd edək ki, iqlim şəraiti həm də heyvandarlığın inkişafı üçün önəmlidir ki, bu da yeyinti sənayesinin inkişafında əhəmiyyətli rola malikdir;

- zəngin və çeşidli xammal bazasının mövcudluğu amili– yeyinti sənayesinin inkişafına təsir edən amillər biri-biri ilə qarşılıqlı əlaqədədir və əksər hallarda biri-digərini tamamlayır. Əlverişli iqlim və relyef zəngin və çeşidli xammal bazasının formalaşmasını təmin edir, buna şərait yaradır;
- infrastuktur təminatı və kommunikasiyalara çıxış amili– iqlim və relyef amili ilə əlaqəli olan bu amil hər bir sahənin, o cümlədən, yeyinti sənayesinin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. İlk növbədə, zəruri infrastruktur təminatı- anbar təsərrüfatı, saxlama kameraları, çeşidləmə meydançaları və s. infrastruktur imkanlar olmadan sənaye müəssisəsinin normal və uzunmüddətli fəaliyyəti qeyri-mümkündür. O cümlədən, lazımi xammal və avadanlıqların, işçi qüvvəsinin müəssisəyə gəlməsi, eləcə də hazır və ya aralıq məhsulların bazara çatdırılması, məhz nəqliyyat-kommunikasiya imkanları əsasında reallaşır. Ümumiyyətlə, bu amil iqtisadi nəzəriyyədə də məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi probleminin həlli ilə bağlı xüsusi vurğulanır. Hər hansı bir nəqliyyat-kommunikasiya imkanları zəif olan müəssisənin uzunmüddətli və rentabelli fəaliyyəti qeyri-mümkündür. Bu baxımdan, infrastruktur və kommunikasiya amili yeyinti sənayesinin inkişafı üçün də mühüm amildir;
- əlaqəli sənaye infrastukturlarının mövcudluğu amili- bu amil özündə yeyinti sənayesi ilə əlaqəli energetika, kənd təsərrüfatı, maşınqayırma və s. sənaye müəssisələrinin də olması zərurətini ifadə edir. Aydındır ki, bir sənaye sahəsi kimi yeyinti sənayesinin inkişafı digər bir sıra sənaye sahələrinin mövcudluğundan çox asılıdır. Qeyd edilən amil də, məhz bu sahələrin olması zəruriliyini özündə ehtiva edir;
- komplekslilik amili– bu amil əvvəldə qeyd edilən amillərin bir neçəsini də özündə əhatə edir. Komplekslilik fəaliyyətin zəruri şərtlərindəndir, infrastruktur təminatı, kadr potensialı, zəruri sənaye sahələri, nəqliyyat-kommunikasiya imkanları və s. kimi məsələlərə kompleks yanaşmanı ifadə edir.

Yuxarıda qeyd edilən amillərdən əlavə, yeyinti sənayesinə təsir edən amilləri daxili və xarici mühit amilləri olmaqla iki hissəyə ayırırlar. Ümumi yanaşsaq, xarici mühit amillərinə, adından da göründüyü kimi, istehsal və satış trayektoriyasını əhatə etməyən– rəqibin sıradan çıxması, siyasi qərarların təsirləri və s. amillər daxildir. Yeyinti sənayesinin inkişafına təsir edən daxili mühit amillərinə isə xammal-istehsal-satış trayektoriyasına aid edilən amillər daxildir. Buraya istehsal prosesinin mərhələləri, maliyə ehtiyatları, marketinq fəaliyyəti, satış xidmətləri və s. aiddir. Müşahidələr göstərir ki, bütün dövrlərdə keyfiyyətli qida məhsulları istehsalı, yeyinti sənayesinin inkişafı daim aktual olan məsələdir. Hətta Azərbaycanda nəinki müxtəlif müəssisələrin, o cümlədən, şəxsi ev təsərrüfatlarının da inkişafı davamlı olaraq dövlətin qayğısı ilə əhatə olunub. Belə ki, ölkəmizdə 23 sentyabr 2016-ci ildə ABAD– Ailə Biznesinə Asan Dəstək inkişaf mərkəzi yaradılıbdır. Mərkəzin əsas funksiyası, adından da göründüyü kimi ailə təsərrüfatlarının inkişafına dəstək vermək, əhalinin məşğulluğunu təmin etmək, ailə təsərrüfatlarının hazır məhsullarının satışını təşkil etmək və s. işlərdən ibarətdir. Başqa sözlə desək, ABAD məşğulluğa və kənd təsərrüfatının inkişafına xidmət edən bir sosial

layihədir. Hansı ki, belə sosial yönümlü layihələr gələcəkdə işğaldan azad edilmiş ərazilərdə də mövcud potensialdan səmərəli istifadə və regionun inkişafı baxımından öz bəhrəsini verəcəkdir [4, s. 27-36; 6; 11, s. 43-50].

Mövcud üstünlüklərin reallaşdırılması təkcə sənaye sahələrinin deyil, bütün iqtisadiyyatın davamlı iqtisadi artımına zəmin yaradır. Bu, öz növbəsində, rəqabət qabiliyyətinin və iqtisadi artımın və inkişafın keyfiyyət komponentinin artmasına kömək edir ki, bu da pandemiyadan sonrakı inkişaf dövründə xüsusilə vacibdir.

Ərzaq təhlükəsizliyi problemlərinin artması şəraitində kənd təsərrüfatı və digər xammal növlərindən kompleks və səmərəli istifadə əsasında əhalinin müxtəlif çeşidli yüksək keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi ən mühüm məsələlərdəndir. Klasterlər rayonların inkişafında mühüm rol oynayır. Klasterin təsirlərindən biri də sinergiyadır, çünki diqqət sənayelər arasında əlaqələrə və rəqabətqabiliyyətliliyin ilkin şərtlərinə (istehsal və rəqabət amilləri sisteminin inkişafı, xərclərin azaldılması, səmərəliliyin və əmək məhsuldarlığının artırılması) yönəldilir. İndiki vaxtda "sadəcə resurslara sahib olmaq kifayət deyil. Resurslardan səmərəli istifadə bu gün rəqabət qabiliyyətinin əsasını təşkil edir. Ucuz istehsal amillərinə çıxışı olan ölkələr və şirkətlər deyil, müasir texnologiyalardan və onların istehsal amillərindən səmərəli istifadə üsullarından istifadə edənlər rəqabətədavamlı olurlar".

İşğaldan azad edilmiş torpaqlar bərpa edilərkən uşaq və pəhriz qidaları, hazır yarımfabrikatlar və kulinariya məhsulları, konserv məhsulları, piy və yağ məhsulları, çörək, makaron, ət və süd məhsulları, yem sənayesi, un üyütmə, pivə-spirtsiz məhsullarının istehsalının yaradılması məqsədəuyğundur. Bununla yanaşı, hazır məhsulların dizaynı və qablaşdırılması, qablaşdırılmış məhsulların istehsalı üzrə tədbirlər məqsədəuyğundur. Bütün bunlar istehsalın həcminin, işçilərin sayının artmasına, məhsuldarlığın və səmərəliliyin artmasına, öz istehsalı hesabına əhalinin ərzaq məhsulları ilə təminatının artmasına və Azərbaycanın qlobal iqtisadi bölgüdə iştirakının artmasına kömək edəcəkdir.

Bu çox vacib faktdır ki, «azad edilmiş ərazilər, işğaldan əvvəlki dövrdə, ölkəmizdə cəmi kənd təsərrüfatı istehsalının 50%-ə yaxın hissəsini təmin edirdi. Yaxın gələcəkdə bu potensialın bərpa ediləcəyi mümkündür və dövlətimizin həyata keçirdiyi genişmiqyaslı abadlaşdırma, tikint-quruculuq işləri bu nəticəyə gəlməyə əsas verir».

Təkcə Qarabağ ərazisində 250 min hektardan çox məhsuldar torpaqların olmasına baxmayaraq, bu ərazilərin cəmi 7 faizindən istifadə edilmişdir. Lakin keçmiş SSRİ– İttifaq dövründən fərqli olaraq, hazırda torpaqlardan istifadə fərqlidir. İndi torpaqlardan istifadənin lokomotivi özəl sektor, ayrı-ayrı sahibkarlardır. Bu baxımdan da, torpaqlardan tam və səmərəli istifadə prioritetdir. Ona görə də gələcəkdə torpaqların 7 faizindən deyil, 97 faizindən də səmərəli istifadə təmin ediləcəkdir və bu ən vacib məqamlardan biridir [2; 3; 9].

Məsələn, "ölkəmizdə ət və ət məhsulları üzrə özünü təminetmə səviyyəsi 82,5 faiz, süd və süd məhsulları üzrə isə 86,2 faizdir. İşğaldan azad edilən ərazilərdə təsərrüfat fəaliyyəti bərpa ediləndən, potensial imkanlar təsərrüfat dövriyyəsinə cəlb edildikdən sonra isə bu

məhsullarla daxili tələbat tam təmin ediləcəkdir. Bir çox kənd təsərrüfatı məhsulları ilə özünü təminetmə səviyyəsi yüksələcəkdir" [3; 10].

Ümumilikdə 11-ci Qlobal Qida Təhlükəsizliyi İndeksinin reytinqində Azərbaycan 59,8 indekslə 66-cı yerdədir. Komponentlər baxımından:

- mövcudluq 78,1 və 48 yerdə (ərzaq məhsullarının orta maya dəyərinin dəyişməsi- 59,0, kənd təsərrüfatı ticarəti- 65,4, qida təhlükəsizliyi proqramları- 100,0);
- kənd təsərrüfatı məhsullarına çıxış 56,2 və dərəcə 68 (kənd təsərrüfatı məhsullarına çıxış- 60,3, kənd təsərrüfatı tədqiqatları və inkişafı- 81,1, təsərrüfat infrastrukturu- 73,4, təchizat zəncirinin infrastrukturu- 46,4, təchizat kafiliyi- 36,3);
- keyfiyyət və təhlükəsizlik 54,5 və 83 yerdə (pəhriz müxtəlifliyi- 46,6, mikronutrientlərin mövcudluğu- 68,7, qida təhlükəsizliyi- 93,1);

Göründüyü kimi, Azərbaycan yaxşı mövqeyə malikdir, lakin ərzaq məhsullarının orta qiymətinin dəyişməsi mənfi təsir göstərir və bu, əhalinin rifahına təsir edir. Ona gorə də, işğaldan azad edilmiş ərazilərin coğrafi mövqeyi və relyefi, havası və zəngin resurs potensialı bu regionda hansı sahələrin inkişafının daha perspektivli olduğunu müəyyən etməyə imkan verir.

Qeyd edildiyi kimi, işğaldan azad edilmiş ərazilər zəngin aqrar potensiala malikdir. Bir qisim ərazilər– Cəbrayıl, Ağdam, Zəngilan əkinçilik, meyvə-tərəvəz üçün əlverişli olduğu halda, Kəlbəcər, Laçın, Qubadlı ərazisi də heyvandarlıq üçün geniş potensial imkanlara malikdir. Bu ərazilərin dirçəldilməsi kənd təsərrüfatının inkişafına, bitkiçilik, tərəvəz məhsullarının istehsalına və eləcə də heyvandarlıq sahəsinin inkişafına böyük təkan verəcəkdir. Sadəcə, 7 rayonun kənd təsərrüfatına yararlı torpaqlarının ümumi həcmi 535 min hektar təşkil edir. Bu baxımdan, kənd təsərrüfatının ən son texnologiyalar vasitəsilə inkişaf etdirilməsi yerli tələbatın ödənilməsi istiqamətində töhfə verəcək, eyni zamanda məhsulların xarici ölkələrə ixrac olunması üçün dəyər formalaşdıracaqdır [1; 2; 3; 9].

Bütün bunların olması qida sənayesi klasterinin yaradılmasına kömək edir.

Təbii ki, yeni müəssisələrin yaradılması ilə yanaşı mövcud müəssisələrin filiallarının, törəmə müəssisələrinin də yaradılması nəzərdən keçirilməlidir. Məsələn, "Azərbaycan Holdinq" Azərbaycanda uzunmüddətli fəaliyyət tarixinə və xarici bazarlara məhsul ixracı imkanlarına malik, eləcə də emal müəssisələri olan bir müəssisədir. Ölkəmizdə fəaliyyət göstərən digər təsərrüfat subyektləri ilə müqayisədə bu Holdinq məhsul istehsalında və emalında nəinki Azərbaycanda, ümumilikdə Qafqazda, regionda xüsusi rəqabət qabiliyyətinə malikdir. "Azərbaycan Holdinq" bununla yanaşı, öz məhsullarını xarici bazarlara ixrac etməkdə də böyük uğura imza atmışdır. Holdinqin müstəqilliyin ilk illərindən (1991-ci ildən) fəaliyyətə başlayan bir çox müəssisəsi ölkəmizdə qida məhsullarının istehsalı, emalı, topdan və pərakəndə satışını həyata keçirir. Danılmaz həqiqətdir ki, istənilən subyektin, o cümlədən, "Azərsun Holdinqin" müəssisələrinin uğur qazanmasının əsas səbəblərindən biri keyfiyyət tələblərinə əməl edilməsidir. Keyfiyyət standartlarının yoxlanılmasına nəzarət etmək məqsədilə laboratoriyalar fəaliyyət göstərir və məhsulun keyfiyyətinə ciddi nəzarət edilir. Qeyd edək ki,

Holdinqin məhsulları dünyanın bir çox ölkələrinə (Almaniya, Fransa, Hindistan, Yeni Zellandiya və s.) ixrac olunur və uğurla satılır. Müəssisənin keyfiyyətə nəzarəti, keyfiyyət tələblərinə əməl etməsi onun müsbət imicini formalaşdırır ki, bu da daxili və xarici bazarda uğurlu fəaliyyət üçün çox vacibdir [4; 6; 11].




Bütün bunların həyata keçirilməsi azad edilmiş torpaqların keyfiyyət amilləri, o cümlədən, elmin nailiyyətləri və yeni biliklər hesabına əməli surətdə bərpasına, ölkənin rəqabət qabiliyyətinin artırılmasına və iqtisadi vəziyyətinin möhkəmlənməsinə töhfə verəcək.

## 3. Yeyinti sənayesi müəssisələrinin səmərəli fəaliyyət prinsipləri

Sənaye obyektlərinin, o cümlədən, yeyinti sənayesi müəssisələrinin ərazi üzrə səmərəli yerləşdirilməsi uğurlu və rentabelli fəaliyyətin zəruri şərtlərindən biridir. Bununla bağlı bir sıra prinsiplərə əməl edilməsi zəruridir. Belə ki, müəssisələrin səmərəli yerləşdirilməsi üçün məhsuldar qüvvələrin yerləşdirilməsi prinsipləri ilə yanaşı, digər bütün amillər də kommunikasiyaya çıxış, işçi qüvvəsi və s. incəliklərinə qədər nəzərə alınmalıdır. Bütün sahələrdə olduğu kimi, yeyinti (qida) sənayesi müəssisələri də ərazicə planlaşdırılarkən (yerləşdirilərkən) ölkənin (regionun) müdafiəsi, milli təhlükəsizlik məsələləri də diqqətdə saxlanmalıdır. O cümlədən, aşağıdakı prinsiplərə riayət olunması da tövsiyə edilir [4; 8; 11; 13]:

*Yeyinti sənayesi müəssisələrinin xammal mənbələrinə və istehlak bazarlarına yaxınlığı*- bu prinsipə əməl olunması, ilk növbədə, mövcud resursların daha səmərəli şəkildə istehsal dövriyyəsinə cəlb olunmasını təmin edir. Təbii ki, xammalın uzaq məsafələrə daşınması əlavə məsrəflərə və məhsul itkisinə, keyfiyyət itkisinə səbəb olur ki, bunlar da prinsipə riayət

edilməsini daha da zəruriləşdirir.

*Yeyinti sənayesi məhsulları istehsalının işğaldan azad olunmuş ərazilər üzrə birqərarda yerləşdirilməsi prinsipi–* bu prinsipə əməl olunması, ilk növbədə tarazlı inkişafa kömək edir, regionlar (ərazilər) arasında disbalansı aradan qaldırır. Sənaye istehsalının yerləşdirilməsində bu prinsip iqtisadi rayonlarının sosial- iqtisadi inkişaf tarazlığını təmin edir, ərazilərin təbii-iqtisadi resurs və əmək ehtiyatlarından səmərəli istifadə məsələsini həll edir, əhalinin qeyri-mütəşəkkil köçünün- urbanizasiyasının qarşısını alır.

*İqtisadi rayonlar arasında səmərəli əmək bölgüsünün qorunması prinsipi-* bu prinsipin rəhbər tutulması işğaldan azad edilmiş ərazilərdə təsərrüfat subyektlərinin kompleks inkişafını təmin edir, həm də ərazilərin sənaye istehsalı üzrə ixtisaslaşma istiqamətlərini müəyyən edir.

*İstehsalın beynəlmiləlləşdirilməsi və beynəlxalq əmək bölgüsünə uyğunluq-* adından da göründüyü kimi, bu prinsip həm istehsal-emal proseslərinin, həm də qablaşdırma-satış proseslərinin müasir tələbata uyğun təşkilini tövsiyə edir. Başqa sözlə desək, işğaldan azad edilmiş ərazilərdə yeyinti sənayesinin inkişafı qlobal çağırışlara cavab verən səviyyədə olmalıdır. Əlbəttə, bu o demək deyildir ki, hökmən xarici bazarlara çıxış olmalıdır, amma məhsul istehsalı və qablaşdırılması, tərkibi xarici bazarlara çıxışa hazır olmalıdır.

*Xarici müdaxilələrdən qorunma və ətraf mühitin mühafizəsi–* hər qarışında erməni vəhşiliyi aydın şəkildə görünən işğaldan azad edilmiş ərazilər üçün bu prinsip xüsusi əhəmiyyət kəsb edir. Professor Arif Şəkərəliyevin də qeyd etdiyi kimi, ölkənin ərzaqla təmin olunmasında mühüm əhəmiyyəti olan qida sənayesinin iqtisadi imkanları əsasən bitkiçilik və heyvandarlıqla bağlı əmtəə istehsalının dinamik artımından asılıdır [12].

*İnnovasiyaların tətbiqinin (yeniliklərin qəbulunun) uyğunlaşdırılması–* bu prinsip davamlı olaraq yeniliklərin tətbiqinin zəruriliyini ifadə edir. Yeniliklərin tətbiqi həm kadr təminatı, həm də yeni texnika və texnologiyaların tətbiqi məsələlərini özündə əks etdirir.

Ümumilikdə isə, işğaldan azad edilmiş ərazilərdə yeyinti sənayesinin inkişafı istiqamətində aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, yerli potensialın, təbii-iqtisadi resurs imkanlarının və yuxarıda qeyd edilən bir sıra prinsiplərin nəzərə alınması zəruridir. Eyni zamanda, iqtisadçı alimlərin də qeyd etdiyi kimi, müvafiq kadr potensialının formalaşdırılması da, mövcud kadr heyətinin davamlı şəkildə təkmilləşdirilməsi də yeyinti sənayesinin inkişafının vacib şərtlərindən biridir. Rus alimi Klimenkovanın da qeyd etdiyi kimi, statistik göstəricilər qida (yeyinti) sənayesində inkişaf meyllərinin müsbət istiqamətdə olmasını ifadə edir ki, bu da öz növbəsində insan resursları ilə bağlı mütərəqqi qərarların verilməsi ilə nəticələnir. Yeyinti sənayesi müəssisələrində kadr heyətinin idarə edilməsi, keyfiyyət qiymətləndirilməsinin həyata keçirilməsi heyətin idarə edilməsinin keyfiyyət effektivliyinin ümumi göstəricilər sistemini ayırmağa imkan verir. Aydındır ki, sabit kadrlar olan müəssisələrin fəaliyyəti daha uğurludur, yəni hansı müəssisələrdə kadr axıcılığı, kadr yerdəyişməsi daha azdırsa o müəssisələrin fəaliyyəti daha rentabellidir. Bu baxımdan da, müəssisənin kadr heyətinin qiymətləndirilməsi zamanı istifadə edilən göstəricilərin tərkibinə kadrların fəaliyyətinin sabitliyi, əmək məhsuldarlığı və kadrlara dair digər iqtisadi göstəricilərin

daxil edilməsi məqsədəuyğun olardı [12; 14].

**Nəticə**. Regionların rasional bölgüsü məsələləri səmərəliliyin ümumi tələblərinə uyğun olmalıdır. Müəyyən bir sahədə sənayelərin qarşılıqlı əlaqəsinə (sahələrarası razılaşmaya) nail olmaq özlüyündə məqsəd deyil, real nəticələrə nail olmaq vasitəsidir. Məqsəd sənayenin struktur transformasiyasının əsas istiqamətlərini və prioritetlərini hazırlamaq, rəqabət üstünlüklərinin yaradılmasını və ən səmərəli istifadəsini təmin etmək, onun rəqabətqabiliyyətlilik səviyyəsini artırmaqdır.

Bütün bunlar işğaldan azad edilmiş ərazilərdə intensivləşmiş regionallaşma, qloballaşma və inteqrasiya prosesləri nəzərə alınmaqla yeyinti sənayesinin bərpası və inkişafı üçün əsasların yaradılmasına öz töhfəsini verəcək.

Qloballaşma, müəssisələrin qlobal rəqabəti proseslərinin inkişafı, investisiyaların axını ilə müşayiət olunur. Regionların üstünlüyü, əsasən, onların rəqabətqabiliyyətliliyi amili ilə müəyyən ediləcək ki, bu da yüksək texnologiyaların inkişafı strategiyasının, sahibkarlığın, regional və dövlətin iqtisadi siyasətinin böyük təsiridir. Müqayisəli amil təbii sərvətlərin mövcudluğudur ki, bu da yalnız təbii-iqlim şəraiti fərqli olan regionlarda əsas rol oynayacaqdır. Regionallaşma prosesləri, fikrimizcə, ən azı iki aspektdə özünü göstərəcək:

- Birincisi, region daxilində yeni “artım qütbləri” və iqtisadi inkişaf mərkəzləri formalaşacaq ki, onların yaranması həm elm və texnikanın tərəqqisi, həm də konkret məhsula yaranan ehtiyacların ödənilməsi zərurəti ilə müəyyən ediləcək.
- İkincisi, zaman keçdikcə sərhədyanı rayonlarda regionallaşma prosesləri iqtisadi cəhətdən bir-birindən asılı olan və bir-birini tamamlayan ərazi qurumlarının, o cümlədən, ölkənin və qonşu dövlətlərin sərhədyanı rayonlarının yaradılmasına gətirib çıxara bilər və müxtəlif malların istehsalında birgə fəaliyyətin həyata keçirilməsinə yönəldilə bilər.
- İşğaldan azad edilmiş torpaqlar bərpa edilərkən uşaq və pəhriz qidaları, hazır yarımfabrikatlar və kulinariya məhsulları, konserv məhsulları, piy və yağ məhsulları, çörək, makaron, ət və süd məhsulları, yem sənayesi, unçəkmə, taxıl, pivə və alkoqolsuz istehsal. Bununla yanaşı, hazır məhsulların dizaynı və qablaşdırılması, qablaşdırılmış məhsulların istehsalı üzrə tədbirlər məqsədəuyğundur. Bütün bunlar istehsalın həcminin, işçilərin sayının artmasına, məhsuldarlığın və səmərəliliyin artmasına, öz istehsalı hesabına əhalinin ərzaq məhsulları ilə təminatının artmasına və Azərbaycanın qlobal bölgüdə iştirakının artmasına kömək edəcəkdir.
- Qlobal Ərzaq Təhlükəsizliyi İndeksinin 11-ci reytinqində Azərbaycan 59,8 indekslə 66-cı yeri tutur. Göründüyü kimi, Azərbaycan yaxşı mövqeyə malikdir, lakin ərzaq məhsullarının orta qiymətinin dəyişməsi mənfi təsir göstərir və bu, əhalinin rifahına təsir edir.
- Araşdırmalar göstərir ki, yeyinti sənayesi müəsissələrinin fəaliyyətinə çoxsaylı amillər təsir göstərir ki, buraya da iqlim şəraitindən, relyefdən başlayaraq ixtisaslı kadrlara

qədər məsələlər daxildir. Təbii ki, potensial imkanların olması, əlverişli fəaliyyət mühitinin olması nə qədər zəruridirsə, hazırlıqlı, çevik kadrların, komandanın olması da o qədər vacibdir. Eyni zamanda, yeyinti sənayesi məhsulları istehsalının işğaldan azad olunmuş ərazilər üzrə proporsional yerləşdirilməsi, iqtisadi rayonlar arasında səmərəli əmək bölgüsünün qorunması, xarici müdaxilələrdən qorunma və ətraf mühitin mühafizəsi, innovasiyaların çevik tətbiqinin uyğunlaşdırılması zəruridir və yeyinti sənayesinin inkişafına nail olmaq mümkündür.

## Ədəbiyyat


1. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 7 iyul 2021-ci il. https://president.az/az/articles/view/52389
2. "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 10 dekabr 2021-ci il, https://president.az/az/articles/view/54575
3. Bağırov O. Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas istiqamətləri. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Bakı, 2021-ci il, s. 12.
4. Əliyeva Z.K. Qida sənayesi müəssisələrində əməyin stimullaşdırılması əsasında insan resurslarının idarə edilməsinin əsas istiqamətləri. Bakı, Xəzər Universiteti, 2022, s. 65.
5. Hümbətov Y.Ə. Sənayenin təşkili və idarə edilməsi. Bakı, Çaşıoğlu, 2017, s. 401.
6. Hüseynova N.R. Azərbaycanda yeyinti sənayesinin inkişafı və investisiyanın prioritet istiqamətləri. Bakı, Audit jurnalı, 1(2020), Cild 27, s. 113-122.
7. İbrahimov İ.H. İşğaldan azad edilmiş ərazilərdə yeyinti sənayesinin dövlət tənzimlənməsi istiqamətləri. Bakı, Audit jurnalı, 2021, 2(32), s. 50-59.
8. Quliyev R.R., Mikayılov F.Q. və b. İşğal nəticəsində dəymiş zərərin qiymətləndirilməsinin metodoloji əsasları. Monoqrafiya. İqtisad Universiteti, 2019, s. 130.
9. Manafov Q. İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsinin iqtisadi aspektləri. UNEC Ekspert jurnalı, Bakı, 2020, No.2(09), 2021, No.1 (10), s. 6-9.
10. Sadıqov E. Vətən müharibəsindən sonra Qarabağ bölgəsinin Azərbaycanın bazar iqtisadiyyatına təsiri. UNEC Ekspert jurnalı, Bakı, 2020, No.2(09), 2021, No.1 (10), s.14-19.
11. Salamova F.A. Azərbaycanda yeyinti sənayesinin inkişaf problemləri. Bakı, UNEC, 2018, s. 102.
12. Şəkərəliyev A. Dövlətin iqtisadi siyasəti: dayqanıqlı və davamlı inkişafın fəlsəfəsi. Bakı, İqtisad universiteti nəşriyyatı, 2011, s. 274.
13. Tomac, N., Radonja, R., Bonato, J. Analysis of Henry Ford's contribution to production and management. Pomorstvo, 2019, 33(1), 33-45.

14. Клименкова Т.А. Развитие человеческого потенциала как результат повышения качества менеджмента предпринимательских структур. Вестник ИНЖЭКОН"а, 2006, No.4 (13), с. 381-383.
15. Юзбашиева Г.З. Влияние азербайджанского менталитета на экономическое развитие страны. Б., 2010.